# NEFTÇALA RAYONU ƏRAZİSİNDƏ ÇƏMƏN-BOZ TORPAQLARİN AQROEKOLOJİ SƏVİYYƏSİ

**Əhmədova G.M., Səlimova P.S.**

*Bakı Dövlət Unversteti*
*sulsal@mail.ru*

Neftçala rayonu ərazisində suvarılan çəmən-boz torpaqların aqrokimyəvi xüsusiyyətləri öyrənilmiş, məlum olmuşdur ki, bu torpaqlar Respublika torpaqları üçün qəbul edilmiş qradasiyaya uyğun olaraq azot, fosfor və kaliumun bitki tərəfindən mənimsənilən formaları ilə əsasən zəif təmin olunmuşlar.

Müasir dövrdə kənd təsərrüfatı sahəsinin qarşıda duran əsas vəzifələrdən biri, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını artırmaq və əkin sahələrini genişləndirməkdən ibarətdir. Hələ qədim dövrlərdən bu zamana kimi intensiv istifadə edilən torpaqların münbitliyinin artırılması və əkin altında istifadə olunan torpaqların əsaslı suratdə keyfiyyətinin yaxşılaşdırılması yollarının öyrənilməsi aktual məsələlərdəndir.

Boz-çəmən və çəmən-boz torpaqlar Muğan düzünün torpaq örtüyünün əsas fondunu təşkil edir. Geomorfoloji cəhətdən bu torpaqlar ilin müəyyən hissəsində yüksək rütubətlilik şəraitini qoruyan maili şleyfləri, sıx-sıx depressiv alçaqlıqları əhatə edir. Bu torpaqlar torpaqlar yarımhidromorf rejim şəraitində inkişaf etmişdir və buna görə də, torpaqəmələgəlmə prosesi səthi və qrunt rütubətliliyinin təsiri altında baş verir. Bu torpaqların morfologiyası üçün profildə hidromorfizmin bəzi xassələrinin mövcudluğu səciyyəvidir, bu isə həmin torpaqların subasar delta rejimi şəraitində yerləşdiyini göstərir.

Neftçala rayonu ərazisində formalaşmış torpaqlarının əsas genetik növləri mövcud bioklimatik qurşaqlıqlarla şərtlənmişdir.Neftçala rayonu ərazisində boz torpaqlar geniş inkişaf etmişdir. Bataqlıqlaşmış yerlərdə çəmənlik-bataqlı torpaqları müşahidə olunur. Neftçala rayonu ərazisində suvarılan cəmən-boz torpaqlarında əsas qida maddələrinin ümumi miqdarının çox olmasına baxmayaraq bitki tərəfindən mənimsənilə bilən qida maddələrinin miqdarı azdır.